

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

# POLİS

www.pq.mia.gov.az

polisazerbaycan

11 noyabr 2022-ci il
Cümə

1933-cü ildən çıxır
№ 44 (3607)

# BİRLİYİN, HƏMRƏYLİYİN MÖCÜZƏSİ - 8 NOYABR





Prezident İlham Əliyevin Şuşadan tarixi zəfərimizin ikinci ildönümündə verdiyi mesajlar Xankəndində rus sülhməramlılarına sığınanları təşvişə salıb. Hədəfləri açıq-aydın göstərən Ali Baş Komandan Qafqazda kimlərin maraqlarının toqquşmasından asılı olmayaraq Azərbaycanın ərazi bütövlüyünü bərpa etməsini daxili işi olduğunu açıq şəkildə bəyan etdi.

Ötən 30 ildə dilə gətirdiyimiz həqiqətlərə göz yumanların, İkinci Qarabağ - Vətən savaşınadək olan müddət ərzində ölkəmizlə təhdid dilində danışanların, bizi torpaq itkisi ilə barışmağa sövq edənlərin cavabını Şuşaya bayraq sancmaqla verdik.

Torpaqlarımızda ikinci erməni dövləti qurmaq istəyənlərin niyyəti Şuşa bəyannaməsindən sonra, necə deyərlər, gorbagor oldu. Azərbaycan regionun söz sahibi olduğunu, sülhə daim dəstək verdiyini və yaranan əlverişli şəraitin düşmən ölkənin daha çox karına gələcəyini bütün görüşlərdə qeyd etməklə, öhdəliklərin yerinə yetirilməsinin vacibliyinə də diqqət çəkdi.

Lakin təəssüflər olsun ki, ikili oyunlar, riyakar qonşularımızın iyrənc siyasət yürütmələri səbrimizi yenidən sınağa çəkir.

Dövlət sərhədlərimizin bir addımlığında İranın əzələ nümayişinə, Rusiyanın Xankəndinə atdığı siyasi desantı Vardanyanın sayıqlamalarına cavabımız 50 milyonluq bir xalqın dəmir yumruğu ilə daha ölümcül olacaq.

***"Ermənistan bilməlidir ki, bizi indiki çərçivələrdə saxlayan Ermənistanın hansısa havadarının bəyanatı deyil, bizim öz siyasətimizdir. Biz heç kimdən qorxmuruq, heç kimdən çəkinmirik. Əgər biz kimdənsə qorxsaydıq, heç vaxt İkinci Qarabağ müharibəsinə start verməzdik. Biz hər birimiz ölümə gedirdik, öldü var, döndü yoxdur, ya azadlıq, ya ölüm! İndi də ölümə getməyə hazırıq öz haqlarımızı tələb edərək. Çünki hələ də, - müharibə iki il bundan əvvəl başa çatsa da, - narahatedici məqamlar var və erməni xalqına müraciət edib sözümü demək istəyirəm. Onlar bu otuz ilin işğalının acılarını indi görürlər. İşğal nədir, itki nədir, indi görürlər. Biz, sadəcə olaraq, onlara cavab vermişik, biz öz torpağımızda vuruşmuşuq, işğalçını torpaqlarımızdan qovmuşuq. Onlar bunu anlamalıdırlar ki, xaricdə oturan və bu bölgəyə bir oyun meydançası kimi baxmaq istəyən dairələrin qurbanına ikinci dəfə çevrilməsinlər. Biz burada əsas söz sahibiyik, biz burada əsas güc sahibiyik".***

Zəfər günündə Prezident İlham Əliyevin Şuşada səsləndirdiyi bu fikirləri bütün dünya eşitdi. Arzusunda olduğumuz zaman yetişib və bizi bölən sərhədləri dağıtmağın, bir olmağın, hürr olmağın çoxdan vaxtı çatıb.

# QÜRUR DOĞURAN XİDMƏT



Zəfər günü ərəfəsində daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazov, nazir müavini - Daxili Qoşunların Komandanı, general-leytenant Şahin Məmmədov, Qərargah rəisi, general-mayor Tofiq Hüseynov və Komandanın müavini, general-mayor İnqilab Muradov DİN-in hərbi qulluqçularının işğaldan azad olunmuş ərazilərdəki yerləşmə məntəqələrində oldular.

*Ardı 2-ci səhifədə.*



*Əvvəli 1-ci səhifədə.*

# QÜRUR DOĞURAN XİDMƏT

Nazir V.Eyvazov hərbi qulluqçuların kazarma-məişət şəraiti, qidalanması, sağlamlıq durumu ilə maraqlanıb, həmçinin maddi-texniki təminatı ilə yaxından tanış olub, müvafiq tapşırıq və tövsiyələrini verib.

General-polkovnik Vilayət Eyvazov vurğulayıb ki, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin işğaldan azad olunmuş ərazilərdə xidmətin müasir standartlar səviyyəsində təşkilinə dair verdiyi tapşırıqlara uyğun olaraq hərbi qulluqçuların maddi-texniki bazası, kazarma-yaşayış şəraitinin yaxşılaşdırılması istiqamətində, eləcə də qabaqcıl texnika, xüsusi vasitələr və rabitə sistemləri ilə təchiz edilmələri üçün ardıcıl tədbirlər həyata keçirilir.

Polis əməkdaşlarının və hərbi qulluqçuların işğaldan azad olunmuş ərazilərdə öz şərəfli xidmətini böyük əzm və peşəkarlıqla davam etdirdiyini xüsusi qeyd edən nazir onları Zəfər Günü münasibətilə təbrik edib, xidmətlərində uğurlar arzulayıb.





# ƏSRƏ BƏRABƏR ZƏFƏR GÜNÜ!

Yalnız ərazi bütövlüyümüzün deyil, milli qürurumuzun da bərpası kimi tariximizə düşən Zəfər günü 30 ilə yaxın az qala təqvimin hər ayında qara gün kimi qeyd etdiyimiz işğal günlərinin utancını, kədərini silib atdı. Torpaqlarımızın düşmən tapdağında qalması bizə əsrlər öncə üzləşdiyimiz faciələrimizi də yada salır, yaramıza qor basırdı. Məhz buna görə 8 noyabrda Şuşanın azad edilməsi ilə düşmən üzərində inamlı qələbəni müjdələyən Zəfər günü bizim üçün əsrə bərabərdir.

Ancaq tarix bizə unutmayacağımız, unutmaq haqqı tanımadığı bir dərs də verdi. Unudulmayacaqların ən başında təbii ki, şəhidlərimiz, onların ailə üzvləri və şəhidlərimiz, yəni qazilərimiz gəlir. Vətən müharibəsində şəhidlik zirvəsinə ucalan hərbçilərimizin ailələrini mütəmadi ziyarət edən polis əməkdaşları Zəfərin ikinci ildönümündə də ənənəyə sadiq qalaraq, paytaxtda və yerlərdə şəhid ailələrinə baş çəkib, şəhid məzarlarını ziyarət edib və qazilərlə görüş keçiriblər.








**DİN-in Polis Akademiyasında 8 noyabr – "Zəfər Günü"** münasibətilə keçirilən tədbirlər müvafiq plana əsasən silsilə xarakter daşıyıb.

Akademiyada keçirilən tədbir ümummilli lider Heydər Əliyevin və ölkəmizin suverenliyi, ərazi bütövlüyü uğrunda şəhid olanların, həmçinin xidməti tapşırıqları yerinə yetirərkən həlak olan polis əməkdaşlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilməsi və Dövlət Himninin səsləndirilməsi ilə başlayıb.

**Akademiyanın rəisi, polis general-mayoru Canpolad Daanov** çıxışında ordumuzun 44 günlük Vətən müharibəsində Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə apardığı "Dəmir Yumruq" əməliyyatı zamanı keçdiyi şanlı döyüş yolu haqqında məlumat verib. Daimi heyəti və kursantları bayram münasibəti ilə təbrik edən C.Daanov onlara gələcək həyat və xidməti fəaliyyətlərində uğurlar arzulayıb. Daha sonra atası birinci Qarabağ müharibəsi zamanı şəhid olmuş Akademiyanın Əməliyyat-axtarış fəaliyyəti kafedrasının müəllimi Natiq Hüseynov və babası həmin müharibədə şəhid olmuş əyani fakültənin 4-cü kurs kursantı Qafar Qarayev çıxış ediblər.

Silsilə tədbirlər çərçivəsində Akademiyada qiyabi təhsil fakültəsinin təşkilatçılığı ilə V kurs ali təhsilli dinləyicilər arasında "Zəfər Günü"nə həsr olunmuş Referat müsabiqəsi də keçirilib.

DİN-in Polis Akademiyasının İxtisasartırma fakültəsində "İlkin hazırlıq" kursunu bitirmiş əməkdaşların "Andiçmə" mərasimi, eləcə də xüsusi təyinatlı ali təhsil müəssisələri arasında Parkur yarışı bayram ərəfəsinə təsadüf edib. Yarışın nəticələrinə görə Heydər Əliyev adına Hərbi İnstitutun komandası I, DİN-in Polis Akademiyasının komandası II, DİN-in Daxili Qoşunlarının komandası isə III yerə layiq görülüb.

Bayram ərəfəsində Akademiyanın əyani təhsil üzrə I kurs kursantları Hərbi Qənimətlər Parkına da baş çəkiblər.

**Suraxanı rayonunda Rayon Mühafizə Şöbəsinin** rəhbərliyi və əməkdaşları əlamətdar gün münasibətilə qazilərin, şəhid ailələrinin qayğıları ilə maraqlanıb, onlara maddi və mənəvi dəstək göstəriblər. Görüşlərdə bildirilib ki, müharibə veteranlarının, əlillərinin, şəhid ailələrinin sosial müdafiəsinin gücləndirilməsi, onların hər cür qayğı ilə əhatə olunması Prezident İlham Əliyevin yürütdüyü sosialyönümlü siyasətin əsas istiqamətlərindəndir.

Daha sonra Zəfər Günündə Suraxanı RMŞ-nin rəhbərliyi və bir qrup şəxsi heyəti rayon ərazisindəki Şəhidlər xiyabanını ziyarət ediblər.



Ziyarət zamanı şəhidlik zirvəsinə ucalan qəhrəmanlarımızın igidlik və şücaətindən danışılıb, xatirələrinin xalqımız tərəfindən daim əziz tutulduğu, onların fədakarlıqlarının qəlblərdə əbədi yaşayacağı qeyd olunub.

Zəfər Günü ilə əlaqədar **Nəsimi Rayon Mühafizə İdarəsində** də rəhbərliyin və şəxsi heyətin iştirakı ilə tədbir keçirilib. Tədbir iştirakçıları şəhidlərimizin əziz xatirəsini bir dəqiqəlik sükutla yad ediblər.

**Daha sonra çıxış edən RMİ-nin rəisi, polis polkovnik-leytenantı Məmməd Məmmədov** Vətən müharibəsində qazanılmış qələbənin şanlı tariximizin ən parlaq səhifələrindən olduğunu bildirib, bütün dünyanı heyrətə salan hərbi nailiyyətlərimizdən, ordumuzun igidlik nümunələrindən söz açıb.

İdarənin əməkdaşları tədbirdən sonra Hərbi Qənimətlər Parkına baş çəkib, İkinci Fəxri xiyabanda şəhidlərimizin məzarını ziyarət ediblər.

Zəfər Günü ilə əlaqədar **Xətai Rayon Mühafizə İdarəsində** Vətən müharibəsinin qaziləri ilə keçirilən görüşdə İdarənin rəhbərliyi, şəxsi heyəti və Şəhid Ailələri, Əlillər və Müharibə Veteranlarının Müdafiəsi İctimai Birliyinin sədri, həmçinin üzvləri iştirak ediblər.

Öncə səhər təlimatında idarənin əməkdaşlarına Azərbaycan Ordusunun böyük fədakarlığı və əzmkarlığı sayəsində qazanılmış Zəfər barədə məlumat verilib. Daha sonra akt zalında qonaqların iştirakı ilə davam etdirilən tədbirdə çıxış edən **idarə rəisi, polis polkovniki Nazim Həsənov** 28 illik həsrətə 44 gündə son qoyan ordumuzun Müzəffər Ali Baş Komandan İlham Əliyevə və xalqımıza arxalanaraq böyük zəfər qazandığını qeyd edib. Torpaqlarımızın sülh yolu ilə qaytarılması üçün göstərilən diplomatik səylərin nəticəsiz qalmasından sonra "Dəmir yumruq" əməliyyatı ilə düşmənə ağır zərbə vurulduğunu və onun kapitulyasiya aktına imza atmağa məcbur edildiyini yada salan polis polkovniki, DİN Daxili Qoşunların hərbçilərinin də cəbhədə qanla yazılan qəhrəmanlıq salnaməsinə öz adlarını həkk etdiklərini vurğulayıb.

Zəfərin ikinci ildönümü münasibətilə **Binəqədi RPİ-də** keçirilən tədbirdə Vətən müharibəsində hərbçilərimizin dünya hərb tarixinə düşən qəhrəmanlığından söz açılıb. İdarə rəisinin xidmət üzrə müavini, polis polkovnik-leytenantı Vüsal Axundov çıxışında DİN Daxili Qoşunlarının xüsusi təyinatlı dəstələrinin ön cəbhədə, arxa cəbhədə isə sabitliyi təmin edən polis əməkdaşlarının daxili işlər orqanlarının adını tariximizin növbəti taleyüklü mərhələsində layiqincə doğrultduğunu qeyd edib.

Daha sonra idarənin əməkdaşları şəhid hərbi qulluqçularımızın ailələrinə baş çəkib, şəhid məzarlarını ziyarət ediblər.

**Biləsuvar və Cəlilabad Rayon Polis şöbələrinin** əməkdaşları da Zəfər Günü ərəfəsində işğal altında olan Vətən torpaqlarının azad olunması uğrunda mərdliklə döyüşərək şəhid olmuş hərbi qulluqçuların məzarlarını ziyarət ediblər.

Bayram münasibətilə ağacəkmə kampaniyası keçirən Biləsuvar Rayon Polis Şöbəsinin əməkdaşları xüsusi ayrılmış ərazidə rayonun iqlim şəraitinə uyğun olan 100-dən artıq ağac əkiblər.

**Kəlbəcər Rayon Polis Şöbəsinin** əməkdaşları Vətən müharibəsində torpaqlarımızın işğaldan azad edilməsi uğrunda gedən döyüşlərdə şəhid olan Daxili Qoşunların hərbi qulluqçuları Seymur Həsənli və Həsən Abdullayevin ailə üzvlərini ziyarət ediblər.

*Ardı 3-cü səhifədə.*

# ƏSRƏ BƏRABƏR ZƏFƏR GÜNÜ!

*Əvvəli 2-ci səhifədə.*

Vətənimizin ərazi bütövlüyü uğrunda canından keçmiş şəhidlərimizin ailələrinə baş çəkən **Zəngilan Rayon Polis Şöbəsinin** əməkdaşları da şəhidlərimizin ailə üzvlərini təbrik edib, onlara mənəvi dəstəklərini ifadə ediblər.







Görüşlər zamanı müqəddəs amal uğrunda canlarından keçən mərd oğullarımızın qəhrəmanlıqla dolu döyüş yolu xatırlanıb, hər birinin göstərdiyi igidlikdən bəhs edilib.

Gəncə regional qrupumuzdan aldığımız məlumata görə, Tovuz rayonunun Yuxarı Öysüzlü kəndində Vətən torpaqlarının azad olunması uğrunda mərdliklə döyüşərək şəhid olmuş DİN-in Daxili Qoşunlarının hərbi qulluqçusu, baş çavuş Vüqar Əkbərovun anım mərasimi keçirilib. Mərasimdə **Tovuz Rayon Polis və Rayon Mühafizə şöbələrinin** şəxsi heyəti, Daxili Qoşunların hərbi qulluqçuları, şəhidin ailə üzvləri, döyüş yoldaşları və rayon ictimaiyyəti iştirak edib.

**Saatlıda Zəfər Günü ilə əlaqədar təşkil edilən tədbirdə RPŞ-nin** rəhbərliyi və əməkdaşları Vətən uğrunda canlarından keçən şəhidlərin xatirəsinə ucaldılmış abidəni ziyarət edərək, önünə tər güllər düzüblər.

Sonra isə Vətən müharibəsi iştirakçılarının və polis əməkdaşlarının iştirakı ilə Gənclər Evində davam edən tədbirdə çıxış edənlər şanlı qələbəmizdən fərəhlə danışıblar. Bildirilib ki, qüdrətli ordumuzun gücü sayəsində 30 il işğal altında olan torpaqlarımız azad edildi, müqəddəs amal uğrunda canlarından keçən şəhid oğullarımızın qisası alındı.

Tədbirdə həmçinin, Vətən müharibəsi zamanı döyüşlərdə fərqlənən və hazırda Saatlı RPŞ-də xidmət edən polis əməkdaşına təltif olunduğu medallar da təqdim edilib. Sonda isə şöbənin kollektivi DİN Daxili Qoşunlarının şəhid hərbi qulluqçusu Anar Məmmədovun məzarını ziyarət ediblər.

*"Polis"*









# Təntənəli mərasim keçirilib

***Noyabrın 5-də Akademik Milli Dram Teatrında Daxili İşlər Nazirliyi tərəfindən "Zəfər Günü"nün ikinci ildönümünə həsr olunmuş təntənəli mərasim keçirilib.***





Tədbirdə 44 günlük Vətən müharibəsində iştirak etmiş DİN-in hərbi qulluqçuları və polis əməkdaşları iştirak ediblər.

Əvvəlcə respublikamızın suverenliyi, ərazi bütövlüyü uğrunda canından keçmiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Dövlət Himni səsləndikdən sonra Azərbaycan Respublikasının daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazovun 8 noyabr – Zəfər Günü ilə əlaqədar ünvanladığı təbriki və xoş arzuları tədbir iştirakçılarının nəzərinə çatdırılıb.

**Mərasimdə çıxış edən Daxili İşlər Nazirliyi Daxili Qoşunlar komandanının müavini, general-mayor İnqilab Muradov** Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin vahid komandanlığı altında dəmir yumruq kimi birləşən Silahlı Qüvvələrimizin, o cümlədən Daxili İşlər Nazirliyinin hərbi qulluqçularının və polis əməkdaşlarının Vətən müharibəsində şərəfli döyüş yolu keçdiyini vurğulayıb.

Şəxsi heyətin Murovdağdan Şuşaya qədər gedən döyüşlərdə iştirak etdiyini qeyd edən məruzəçi torpaqların azad olunması zamanı 66 nəfərin şəhidlik zirvəsinə ucaldığını, 346 nəfərin yaralandığını, 4 nəfərin "Vətən Müharibəsi Qəhrəmanı" adına layiq görüldüyünü, minlərlə əməkdaşın isə orden və medallarla təltif olunduğunu qeyd edib.

**Daha sonra çıxış edən Daxili İşlər Nazirliyinin İdarə rəisi, polis polkovniki Elçin Məmmədli** qeyd edib ki, ölkə başçısının xüsusi diqqət və qayğısı ilə əhatə olunmuş hərbi qulluqçularımız və polis əməkdaşları bilik və bacarıqlarını, peşəkarlıqlarını artırmaqla onlara göstərilən bu etimadı doğrultmaq üçün səy və bacarıqlarını əsirgəmirlər.

**Tədbirin davamında çıxış edənlər - Daxili İşlər Nazirliyinin "N" saylı hərbi hissəsinin Xüsusi Təyinatlı Dəstəsinin komandiri, "Zəfər" ordenli kapitan Anar Mahmudov, "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edilmiş Hacıqabul Rayon Polis Şöbəsinin bölük komandiri, polis mayoru Elçin Bəhmənov, "Şuşanın azad olunması" medalı ilə təltif edilmiş DİN-in Ələhiddə Çevik Polis Alayının polis nəfəri, polis kiçik serjantı Kənan Sultanov** və digərləri istər Birinci Qarabağ döyüşlərində, istərsə də 44 günlük Vətən müharibəsində Daxili İşlər Nazirliyinin hərbi qulluqçularının və polis əməkdaşlarının ön cəbhənin müxtəlif istiqamətlərində işğalçı düşmənə qarşı mətinliklə döyüşdüklərini bildiriblər. Onlar bu gün işğaldan azad olunan ərazilərdə Daxili İşlər Nazirliyinin hərbi qulluqçuları və polis əməkdaşlarının xidməti vəzifələrini böyük qürur hissi ilə davam etdirdiklərini məmnunluqla qeyd ediblər.

**Tədbirin sonunda xalq artisti Azər Paşa Nemətovun müəllifi və quruluşçu rejissoru olduğu "Zəfər yolu" tamaşası nümayiş etdirilib.**



# Uşaqların Zəfər coşqusu

**Daxili İşlər Nazirliyinin Maddi-Texniki Təminat Baş İdarəsinin 2 saylı uşaq bağçasında "8 Noyabr - Zəfər Günü"nə həsr olunmuş bayram tədbiri keçirilib.**




Bayram şənliyi balacaların Dövlət Himnini ifa etməsilə başlayıb.

İştirakçıları salamlayaraq Vətən müharibəsi və Zəfər Günü haqqında danışan bağçanın müdiri **Sevinc Məmmədəliyeva** gələcək nəslə Vətənə, torpağa məhəbbət hissini artırmaq, hərbi-vətənpərvərlik ruhunu aşılamaq baxımından tədbirin əhəmiyyətli olduğunu və uşaqlara əsl bayram sevinci yaşatdığını deyib.

**DİN Mətbuat Xidmətinin rəis müavini, polis polkovnik-leytenantı Hafiz Təmirov** isə Zəfərin bir vaxtlar Qarabağdan məcburu köçkün kimi ev-eşiyindən didərgin düşən uşaqların, bağçalarda, məktəblərdə Vətən eşqi ilə boya-başa çatan cəsur oğullarımızın sayəsində əldə edilməsinə diqqət çəkib, bu gün güclü Azərbaycan dövlətinin çətiri altında təlim-tərbiyə alan uşaqların da gələcəkdə ölkəmizə həkim, polis, hərbçi kimi fayda verəcəklərinə inandığını bildirib.

Tədbirdə balacalar mahnılar oxuyub, şeirlər səsləndiriblər. Kukla Teatrının aktyorlarının qələbədən bəhs edən səhnəciyin nümayiş etdirməsi ilə bayram şənliyi başa çatıb.

*R.Mehtiyev*

# AZƏRBAYCANDA İLK DƏFƏ...



Media Təhlil Mərkəzi Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin dəstəyi ilə Heydər Əliyev Mərkəzində mətbuat xidmətlərinin rəhbərlərinin peşəkar bacarıqlarının təkmilləşdirilməsi və inkişafı, bu sahədə effektivliyin artırılması məqsədilə master-klass təşkil edib.

**Azərbaycanda ilk dəfə xüsusi formatda təşkil edilən, ölkədə həyata keçirilən media islahatlarına töhfə vermək, medianın hazırkı dinamik mühitdə inkişafını təşviq etmək, jurnalistlərin bilik və bacarıqlarını daha da təkmilləşdirmək məqsədi daşıyan master-klassı London şəhər Universitetinin jurnalistika üzrə professoru Barni Cons aparıb.**

Vacib nəzəri mövzuların tədrisi ilə başlayan təlimdə iştirakçılar müzakirələrə qoşularaq press-relizlərin hazırlanma forması və sosial media təşəbbüslərinin inkişaf etdirilməsi ilə bağlı sessiyalarda iştirak ediblər.

Qeyd edək ki, master-klassın proqramına peşəkar mətbuat ofisinin təşkili, jurnalistlərin suallarına vaxtında, dəqiq cavab verilməsi, Britaniya və Amerikadakı hökumət qurumları tərəfindən idarə olunan veb-saytların nümunəsində bütün məlumatların müfəssəl yer aldığı peşəkar veb-saytın təşkili, inandırma psixologiyası və digər aktual mövzular daxil edilib.

**Yeri gəlmişkən, noyabrın 1-3-də keçirilən master-klassda DİN Mətbuat Xidmətinin bölmə rəisi, polis baş leytenantı Zeyni Hüseynov da iştirak edib və sertifikatla təltif olunub.**

*"Polis"*

# Uşaqlara hüquqları izah edilir

Nəsimi rayonundakı 111 saylı tam orta məktəbin ibtidai sinif şagirdləri ilə "Uşaq hüquqları aylığı" çərçivəsində görüş keçirilib.




**Tədbirdə Nəsimi RPİ-nin Yetkinlik yaşına çatmayanlarla profilaktiki işin təşkili bölməsinin inspektorları, polis kapitanı Yeganə Zeynalova və polis baş leytenantı Ziba İbrahimova iştirak ediblər.**

İdarənin əməkdaşları şagirdlərə uşaq hüquq və vəzifələri barədə ətraflı məlumat verib, uşaqlara qarşı ayrı-seçkiliyin formaları və onunla mübarizə üsulları, uşaqların istismarı, suiistifadə, laqeyd rəftar və zorakılıq məsələlərinə də toxunublar. Məktəbdə davranış qaydalarına, eləcə də dərsə gələrkən piyada keçidlərindən istifadə etmək kimi yol hərəkət qaydalarına əməl etmənin zəruriliyi barədə profilaktik söhbət aparıldıqdan sonra mövzu ilə əlaqədar fikirlərini bildirmələri üçün məktəblilərə söz verilib və uşaq hüquqları ilə bağlı bilikləri yoxlanılıb.

Sonda şagirdlərin ifasında səhnəciklər göstərilib, şeirlər səsləndirilib.



*R.Mehtiyev*

# Vətənə medalla döndülər

Oktyabrın 26-dan 30-dək Türkiyənin Konya şəhərində keçirilən karatenin WTF növü üzrə gənclər və yeniyetmələr (U21) arasında dünya çempionatına 105 ölkədən 1861 idmançı qatılıb. Turnirdə 28 karateçi ilə təmsil olunan komandamızın tərkibində DİN İdman Cəmiyyətinin 4 üzvü də qüvvəsini sınayıb. Yetirmələrimiz yarışda 2-si qızıl, 1-i bürünc olmaqla, ümumilikdə, 3 medal qazanıblar. Belə ki, 18-21 yaşlılar arasında 60 kiloqram çəki dərəcəsində çıxış edən ikiqat Avropa və dünya çempionu Əminağa Quliyev kanadalı, danimarkalı, belçikalı, ukraynalı idmançılar üzərində inamlı qələbə qazanıb. Finalda isə sonuncu Avropa çempionatının gümüş mükafatçısı, bosniyalı Pavley Dujukoviçə qalib gələrək dünya çempionu adını rəsmiləşdirib.



Digər təmsilçimiz Fərid Savadov da çıxış etdiyi 55 kiloqram çəkidə ilk olaraq yerli idmançını 4:3 hesabı ilə məğlub edib. Sonrakı döyüşlərdə 4:0, 5:1 və 4:1 hesabıyla rəqiblərini üstələməyi bacarıb, yarımfinalda Səudiyyə Ərəbistanı təmsilçisini məyus edib. F.Savadov qızıl medal uğrunda mübarizə apardığı fransalı idmançını da tatamidən başıaşağı yola salıb.

14-15 yaş yeniyetmələr arasında 52 kiloqram çəki dərəcəsində mübarizəyə qoşulan İsmayıl Xomayev ilk görüşdə Xorvatiya karateçisinə qalib gələrək növbəti mərhələyə adlayıb. Serbiyalı, şotlandiyalı, belçikalı rəqibləri də yarışı erkən tərk edib. Finala gedən yolda sevinən tərəf isə Almaniya təmsilçisi olub. İsmayıl təsəlliverici görüşdə Mərakeşli idmançını məğlub edərək turnirin bürünc medalına sahiblənib.

*Teymur Əlizadə, polis mayoru*

# Güclülər qalib gəlib...



Sumqayıt Şəhər Gənclər İdman İdarəsi və Şimal Regional Futbol Federasiyası tərəfindən şəhərin idarə, müəssisə və təşkilatlar arasında Zəfər kuboku uğrunda mini-futbol turniri keçirilib.

Yarışda 16 komanda iştirak edib. Sumqayıt ŞPİ-nin Post-Patrul Xidməti Taborunun əməkdaşları sözün əsl mənasında, "yüksək pilotaj" nümayiş etdiriblər.

Asayiş keşikçiləri FHN-nin Sumqayıt Regional Mərkəzinin, "Gilan Holding"in, Sumqayıt Texnologiyalar Parkının və Bulvar Mühafizə İdarəsinin komandalarına qalib gəlib, finalda SOCAR komandasını 8:1 hesabı ilə məğlub edərək fəxri kürsünün ən yüksək pilləsində qərarlaşıblar.

Sonda qaliblərə - Malik Həsənova, Emin Kərimova, Nadir Sədiyevə, Mehman Qurbanova, Nizami Qarayevə, Malik Rəsulzadəyə, Pərviz Həsənova medal, diplom və kubok təqdim olunub, xatirə şəkili çəkdirilib.

Qeyd edək ki, yarışın nəticələrinə görə ən yaxşı komanda rəhbəri Sumqayıt ŞPİ-nin təlim üzrə baş inspektoru, polis leytenantı Tural Əliyev, ən çox qol vuran polis serjantı Ruhin Əliyev, ən yaxşı qapıçı polis serjantı Ruslan Paşayev, ən yaxşı müdafiəçi isə manqa komandiri, polis baş serjantı Kənan Rzayev seçiliblər.

*Ruslan Vəliyev, polis baş leytenantı*

# Polis kapitanı Dünya çempionu oldu

Bu günlərdə Abu-Dabidə Ciu-citsu idman növü üzrə Dünya çempionatı keçirilib. Mötəbər yarışda dünyanın 66 ölkəsinin ən güclüləri mübarizəyə qatılıb. DİN İdman Cəmiyyətinin idmançıları da bu turnirdə güclərini sınayıb.



Belə ki, DİN İdman Cəmiyyətinin yetirməsi Emil Qurbanov 77 kiloqram çəki dərəcəsində Mərakeş idmançısına qalib gələrək bürünc medala sahib çıxıb.

Onun ardınca DİN İdman Cəmiyyətinin fiziki hazırlıq şöbəsinin baş inspektoru, polis kapitanı Elşən İbişov rəqiblərinə şans verməyib. O, 85 kiloqram çəki dərəcəsində Dominikan, İran İslam Respublikası idmançılarına asanlıqla qalib gəlib. Finala gedən yolda Yunanıstan idmançısı həmkarımızla döyüşdən imtina edib. Beləliklə, finala vəsiqə qazanan Elşən İbişov Əlcəzair idmançısını məğlub edərək Dünya çempionu adını qazanıb.

*R. Vəliyev*

# YAZIRLAR Kİ...

Bakı şəhər sakini Fateh Həsənzadə ünvanladığı təşəkkür məktubunda yazır: "Mənə düşən əmək haqqımı almaq üçün köhnə iş yerimə getmişdim. Ofisdə bildirdim ki, pulum ödənməyənə qədər getməyəcəyəm. Mənə böhtan atıb polislə hədələdilər. Halbuki mən heç bir qayda pozuntusuna yol verməmişəm, sadəcə, əməkhaqqımı vermələrini tələb edirdim. Böhtan atıldığı təqdirdə "102 Xidməti-Zəng Mərkəzi"nə müraciət edib şikayətimi bildirdim. Qısa müddətdə ofisə Nəsimi RPİ-nin 22-ci Polis Şöbəsinin əməkdaşları gələrək məsələyə aydınlıq gətirdilər... Mənə məxsus əməkhaqqım da ödənildi. Müraciətimə çevik reaksiya verilməsinə və göstərilən köməkliyə görə Nəsimi Rayon Polis İdarəsinin şəxsi heyətinə minnətdarlığımı bildirirəm".

❖❖❖

Digər məktubu isə bizə Bakı şəhər sakini Nərminə Əliyeva ünvanlayıb. Yazır ki, evimdə təmizlik işləri aparan qadın tərəfindən oğurluq olması faktıyla əlaqədar Binəqədi RPİ-nin 4-cü Polis Şöbəsinə müraciət etdim. Müraciətimə operativ yanaşdılar. Qısa müddət ərzində oğurluğu törədən şəxs saxlanıldı və mənə məxsus qızıl-zinət əşyalarım geri qaytarıldı.

❖❖❖

Siyəzən rayon sakini, İkinci Qarabağ müharibəsi iştirakçısı, qazi Elçin Məmmədov: "Yaxın tanışım tərəfindən dələduzluğa məruz qalmışdım. Kömək üçün üz tutdum Nəsimi Rayon Polis İdarəsinə. Məni orada hörmətlə qarşıladılar, səmimi qəbul edib dinlədilər. Qısa müddət ərzində dəymiş ziyan tam ödətdirildi. Orada gördüyüm diqqət bir daha sübut etdi ki, polis hər zaman haqqın yanındadır və ədaləti qoruyur. Nəsimi Rayon Polis İdarəsinin şəxsi heyətinə dərin minnətdarlığımı bildirirəm.



❖❖❖

Pirşağı qəsəbəsindəki həyətyanı sahəsindən dəmir armaturların oğurlanması barədə Sabunçu RPİ-nin 15-ci Polis Bölməsinə müraciət etdikdən sonra oğurluğu törətmiş şəxsin qısa müddətdə aşkar olunaraq tutulmasına görə Bakı şəhər sakini Qasım Abdullayev minnətdarlığını ifadə edir.

❖❖❖

Bakı şəhər sakini İlkin Aslanov ünvanladığı məktubda dələduzluğa məruz qalması ilə əlaqədar etdiyi müraciətə çevik reaksiya verilməsinə və göstərilən köməkliyə görə Xəzər Rayon Polis İdarəsinin şəxsi heyətinə təşəkkürünü bildirir.

*Ruhiyyə Əliyeva, polis kapitanı*

# STATİSTİKA

## Kriminal icmal

- Noyabrın 2-dən 10-dək olan müddət ərzində ölkə ərazisində qeydə alınan 353, əvvəlki dövrlərdən bağlı qalan 95 cinayətin açılması daxili işlər orqanlarının əməkdaşları tərəfindən təmin olunub.
- Axtarışda olduğuna görə ümumilikdə 405, o cümlədən borclu şəxs qismində axtarışda olan 302 nəfər saxlanılaraq aidiyyəti üzrə təhvil verilib.
- Respublikanın avtomobil yollarında ölümlə nəticələnən 19 yol-nəqliyyat hadisəsi baş verib, nəticədə 22 nəfər ölüb, 8 nəfər isə xəsarət alıb.
- Narkotiklərlə əlaqəli 175, qanunsuz saxlanılan silah-sursatın götürülməsi və aşkarlanması ilə bağlı 20 fakt müəyyən edilib.

*Natiq Cavadov*

POLİS qəzetinin Kompüter Mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır.
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Polis"ə istinad olunmalıdır.
REDAKTOR: HAFİZ TƏMİROV
Qeydiyyat № 4326. İndeks: 66993
Sayı 10009
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-96-30; 590-93-92; 590-99-30
Çapa imzalanmışdır 17:30
Qiyməti 40 qəpik